Yazan
06.12.13 21:19 -



ATƏT-in Nazirlər Şurasının 20-ci iclasında iştirak etmək məqsədilə Ukraynada səfərdə olan Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Avropa Birliyinin (AB) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Filipp Lefort ilə görüşüb.

XİN mətbuat xidmətindən verilən məlumata görə, görüş zamanı nazir E.Məmmədyarov Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli istiqamətində aparılan danışıqlar və iki ölkə prezidentlərinin son görüşü haqda qarşı tərəfə məlumat verib. Azərbaycanın münaqişə ilə bağlı mövqeyi bir daha diqqətə çatdırılıb.

F.Lefort AB-nin münaqişənin həlli ilə əlaqədar tərəflərə dəstək verməyə hazır olduğunu və etimad tədbirlərinin həyata keçirilməsi ilə əlaqədar Azərbaycanın Dağlıq Qarabağ regionunun azərbaycanlı və erməni icmaları arasında dialoqun təşviq edilməsinin əhəmiyyətini qeyd edib.